# Mətbuatın yalan informasiya və sensasiya aludəçiliyi xəstəliyi

Bazar iqtisadiyyatı münasibətləri şəraitində mətbuata biznes fəaliyyəti kimi baxılır. Əslində, bu belədir. Əgər dövlət çap və elektron KİV-ə senzura vasitəsilə nəzarət etmirsə, onlara hər hansı bir təsir imkanı yoxdursa, birbaşa maliyyələşdirmirsə, deməli, nədən necə yazmaq, fəaliyyətini sərbəst şəkildə planlaşdırmaq, maliyyə resursları tapmaq qəzet, jurnal, sayt və ya telekanal rəhbərinin öz üzərinə düşür. Yəni, təsisçi yaratdığını yaşatmalıdır! Həm də nəinki yaşatmalıdır, özü də oradan qazandığı gəlirlə yaşamalıdır. Bu, belə olmasa, fəaliyyətini dayandırmalı, ya da dəyişdirməli olacaqdır. Şübhəsiz, söhbət qazanılan halal vəsaitdən gedir, qəzet və ya sayt "reketçiliyi" ilə əldə edilən çirkli pullardan yox!




İnformasiyanın toplanıb yayılması, cəmiyyətə hər dəqiqə və hər saat ən müxtəlif mövzularda xəbərlərin çatdırılması təkcə biznes fəaliyyəti də sayıla bilməz. Çünki informasiya kənd təsərrüfatı (kartof, soğan, yumurta və s.), yaxud sənaye (paltar, ayaqqabı, ev avadanlığı və s.) məhsulları deyil. O həm də siyasi məhsuldur, mənəvi məhsuldur. Bu "məhsul" ictimai rəy yarada (yaxud onu dəyişdirə) bilir, insanları yönləndirir (hansısa səmtə), hətta bəzən çaşdırır da! Rəngli inqilablarda, "ərəb baharları"nda bunların şahidi olduq. Odur ki, bu sahədə baş verən hadisələrə və gedən proseslərə heç bir dövlət biganə qala bilməz və qalmamalıdır! Ancaq bütün "təsiretmələr" mövcud qanunlar əsasında, mətbuat və söz azadlığına xələl gətirmədən baş verməlidir.

Mətbuat və söz azadlığı demokratiyanın mühüm prinsiplərindən biridir. Başqa sözlə, demokratik cəmiyyətin əsas atributlarından biri azad sözdür, fikir plüralizmidir. Sözsüz ki, doğru söz, ədalətli söz, obyektiv, qərəzsiz söz!

Çox təəssüf ki, son dövrlərdə dünya mətbuatında (bunu son vaxtlar bir sıra dövlətlərin qəzetlərində və internet saytlarında Azərbaycanla bağlı yazılan qərəzli və məkrli məqalələr də göstərir), habelə ölkəmizdəki çap və elektron mediada yalan informasiyaya, qərəzli fikirlərə, qeyri-obyektiv yazılara daha tez-tez rast gəlirik. Əgər birincilər antiazərbaycançı şəbəkənin fəaliyyətinin bəhrəsi, ölkəmizin inkişafına və müstəqil siyasət yürütməsinə bəslənilən qısqanc, paxıl münasibətdəndirsə, ikincilər bir neçə "mənbə"dən qaynaqlanır. Bütün bunlar nəticə etibarilə mətbuat və söz azadlığına kölgə salır, onu yazanlara və yazdıranlara isə heç zaman şərəf gətirmir.

Adətən, kritik məqamlarda nöqsan və çatışmazlıqlar, səhv və naşılıqlar daha aydın və qabarıq görünür. 2014-cü ilin avqustunda cəbhənin təmas xəttində baş verənlərin, habelə hazırda "MTN işi" adlandırılan mövzunun qəzet səhifələrində işıqlandırılmasındakı mənfi hallar, ölkə KİV-ində müşahidə olunan ciddi nöqsanlar bu sahədə vəziyyətin ürəkaçan olmadığını göstərir. Əslində, bütün bunlar yeni problemlər deyildir, xeyli zamandır gedən proseslərin qanuni nəticəsi kimi meydana çıxmışdır. Söhbət mətbuatda vaxtaşırı yayılan yalan informasiyalardan və KİV-in sensasiya xəstəliyindən gedir. Hətta qısa müddətdə mətbuatda "MTN işi" adlandırılan məlum mövzu ilə bağlı çap və elektron media əndazəni elə bir həddə aşdı ki, Prezidentin ictimai-siyasi məsələlərlə bağlı köməkçisi cənab Əli Həsənov açıqlama ilə çıxış etməli oldu: "*Təəssüflə qeyd etmək lazım gəlir ki, KİV-in sərbəst fəaliyyəti üçün yaradılmış əlverişli şəraitdən son zamanlar sui-istifadə halları artıb. Xüsusilə internet-media orqanlarında müxtəlif dövlət strukturları, onların rəhbərləri və əməkdaşları haqqında həqiqətə uyğun olmayan, əsassız, qərəzli, hətta şantaj xarakterli çoxsaylı məlumatlar yayılır. Vəzifəli şəxslərin guya işdən "kənarlaşdırılması", rəhbərlik etdikləri qurumlarda "yoxlamalar", evlərində "axtarışlar" aparılması, məmurların "həbsi", vəzifələrindən uzaqlaşdırılmış bəzi dövlət qurumlarının rəhbərləri ilə "əməkdaşlığı" və s. bu tipli qərəzli məlumatlar məqsədli şəkildə dövriyyəyə buraxılır. Əminliklə demək olar ki, belə məlumatlar yayan KİV bununla öz tirajlarını artırmağa və mənfəət əldə etməyə çalışırlar! Diqqətə çatdırıram ki, bu tipli fəaliyyət qanuna zidd və birbaşa hüquqi məsuliyyət doğurur*".

KİV-in bu mövzuya "həssaslıqlarının" və "canfəşanlıqlarının" səbəbi nədir? Niyə "hamıdan qabaq nəyisə xəbər vermək", "insanlara "xoruz banı eşitməmiş" informasiya çatdırmaq" uğrunda "qaydasız yarışma" gedir. Əlbəttə, hadisə "gündə təsadüf edilən" məsələlərdən sayılmır. Amma səbəb təkcə bu deyil! Birlikdə nəzərdən keçirək.

Öncə bir neçə vacib məqamı diqqətə çəkirik.

Əvvəla, dövlətin çox mühüm strukturlarından birində baş verən xoşagəlməz, cinayət xarakterli hadisənin üstünü dövlət özü açıb, mətbuat yox!

İkincisi, məsələ ilə bağlı dövlət başçısı öz iradəsini ortaya qoyub, baş verənlərin obyektiv, tam və diqqətlə araşdırılması, bütün faktların və günahkarların müəyyənləşdirilməsi, hüquqi cəhətdən qiymətləndirilməsi üçün zəruri tapşırıqlar verib.

Üçüncüsü, Prezidentin göstərişlərini icra etməkdən ötrü xüsusi istintaq qrupu yaradılıb, ibtidai araşdırmalar aparılır, şahidlər dinlənilir, ifadələr toplanılır, zərərçəkən qismində müraciət edənlərin söylədikləri yoxlanılaraq hüquqi cəhətdən qiymətləndirilir.

Dördüncüsü, müəyyən faktlar sübuta yetirilərək təsdiqini tapdıqca hüquq-mühafizə orqanları ictimaiyyətə rəsmi açıqlamalar verir.

Bəs mətbuat nə edir?

Milli Təhlükəsizlik Nazirliyi daim qapalı sahə olub. İnsanlar bu qurumdan ehtiyat ediblər, zəhmindən qorxublar. Bu gün isə onun keçmiş başçısı və yüksək rütbəli məmurları barədə ağlagəlməz faktlar ortaya çıxır!

Təbii ki, hamının marağı böyükdür! İnsanlar baş verənlərin hamısından tezliklə xəbər tutmaq istəyir. Oxucu və tamaşaçının bu istəyini başa düşmək mümkündür.

Təəssüf ki, bəzi mətbu orqanlar yaranmış situasiyadan istifadə edərək ondan öz xeyrinə bəhrələnməyə çalışır.

Mətbuat həm də tələsir. Amma bu tələskənlik operativliyə xidmət etmir. Əksinə, KİV-lə bağlı qanun və prinsiplərin ciddi şəkildə pozulması ilə nəticələnir. Beləliklə, jurnalist məsuliyyətsizliyinə də yol verilir.

Hansı məqamları nəzərdə tuturuq.

❖ Qəzetlər və saytlar görmədikləri, bilmədikləri, içərisində olmadıqları hadisələrdən yazırlar. Həm də heç bir rəsmi qurum tərəfindən təsdiqlənməmiş fakta istinad etmirlər. Necə deyərlər, qaranlıq yerdə kösöv bulayırlar. Birinci böyük məsuliyyətsizlik budur!

❖ Hətta telekanallardan biri (adını qəsdən çəkmirik) xüsusi "araşdırma şou"su təşkil etmişdi. Aparıcı xanım özünü hadisənin "qəhrəmanı" kimi təqdim edir, sağa-sola "ittihamlar" yağdırırdı. Verilişdə "ekspertlər", "rəyçilər", "ittihamçılar", "prokuror qismində" çıxış edənlər də vardı. Xarici dövlətlərlə "telekörpü" qurulur, oradan da "fikirlər" öyrənilirdi.

Gəlin açıq danışaq! Axı, bu, şou mövzusu deyil! Bəlkə də faciəvi mövzudur! Məsələyə belə yüngül yanaşılmamalıdır!

❖ Mətbuat xəbəri tələsik, yoxlamadan "hamıdan qabaq" verməyə tələsir. Necə deyərlər, süd ağzını yandıra-yandıra içir. Xəbər "tapılmayanda" isə onu özündən uydurur. Əslində, ciddi mövzularda ehtimallara yer ola bilməz! Xüsusən onlar əsl həqiqətdən qaynaqlanmırlarsa!

❖ Mətbuatın sensasiya aludəçiliyi xəstəliyi burada da özünü qabarıq göstərir. Yenicə yaradılan, hələ tanınmamış, özünü təsdiq etməmiş saytlar yaranmış situasiyadan qısa müddətdə "bəhrələnməyə" can atırlar. Bu mövzuda harda nə gedibsə, yoxlamadan, istinad etmədən tez-tələsik götürüb səhifələrinə qoyurlar. Bir sıra qəzet və saytlarda gedən, sonradan təsdiqini tapmayan çoxsaylı "faktlar" dediklərimizə misaldır.

❖ Ötən ilin avqustunda cəbhənin təmas xəttində baş verən hadisələrin, bütövlükdə hərbi mövzunun işıqlandırılması ilə bağlı baş verən ciddi nöqsanlar bu dəfə başqa formada, ölkə paytaxtında özünü büruzə verdi. Milli maraqların qorunması kimi vacib məqam bu dəfə də unuduldu!

Belə naşılığın və qeyri-peşəkarlığın nəticələri barədə də ciddi düşünmək vacibdir. Hər bir qəzet, elektron sayt, televiziya kanalı özündən "xüsusi istintaq qrupu" yaradaraq "müstəqil araşdırma" aparmalı, "nəticəsini" xalqa təqdim etməli deyil!

Milli Təhlükəsizlik Nazirliyi dövlətin bel sütunlarından sayılan qurumlardandır. Orada yüzlərlə vicdanlı, təmiz, peşəkar insanlar çalışır. Mövzunu kampaniyaçılığa, şouya çevirərək belə insanların və bütövlükdə nazirliyin üzərinə kölgə salmaq yaramaz!

"MTN işi"ndən "zərərçəkənlər"in söylədiklərinə də KİV-də geniş yer ayrılmaqdadır. Biz həmin insanların hansının haqlı, hansının haqsız olduğunu bildirmək fikrindən uzağıq. Bütün hallarda bu cür müraciətlər xüsusi istintaq qrupuna ünvanlanmalı, ibtidai araşdırma zamanı sübut və dəlillərlə təsdiqini tapdıqdan sonra ictimailəşdirilməlidir. Bir daha təkrar edirik, kiminsə təqsirkar olub-olmadığını, söylənilənlərin həqiqətə uyğunluğunu yalnız hüquq-mühafizə orqanları müvafiq araşdırma zamanı müəyyən edə bilər! Sayt, qəzet, telekanal yox!

Maraqlıdır ki, hadisələrin əvvəlində bəzi jurnalistlər vaxtilə MTN-lə "əməkdaşlıq" edərək "hədəf seçilən insanları" mətbu söz təzyiqinə məruz qoyan qəzet və internet resurslarının mövcudluğunu söyləsələr də, sonralar onların aşkarlanması (yaxud aşkardırsa tanıdılması) yolunda heç bir addım atmadılar, araşdırma aparmadılar, ünvan göstərmədilər. Halbuki mətbuatın ilk növbədə etməli olduğu məhz bu araşdırma olmalı idi.

Təəssüf ki, özlərinə umac ova bilməyənlər indi həvəslə başqalarına əriştə kəsirlər.

Digər "rekert" jurnalistlər isə artıq pul qoparmağın "yeni üsulunu"da tapıblar. İndi "siz MTN-lə əlbir olmusunuz" şantajı ilə hədəf seçdikləri insanların üzərinə gedir, pul qoparanda səslərini kəsir, müqavimətə rast gələndə isə onların şəkillərini MTN binasının fonu ilə verərək təzyiq göstərməyə başlayırlar. Müşahidələr göstərir ki, bir vaxtlar MTN-dən dəstək alan sayt və qəzetlər ilk vaxtlar səslərini kəsərək bu mövzudan kənar qaçsalar da, hazırda "konspirasiya" məqsədilə "ümumi xora" qoşularaq köhnə ağalarını tənqid edirlər.

Yuxarıda sadaladıqlarımız təkcə qeyri-peşəkarlığın, habelə KİV haqqında qanunun tələblərinə və AJPDQ-nin prinsiplərinə əməl edilməməsinin nəticəsi deyil, həm də yaranmış məqamdan bəhrələnərək diqqəti özünə yönəltmək, təmənnasını təmin etmək üçün törədilən məqsədyönlü əməllərdir. Artıq bu yolda fərqlənən saytlar da dəqiqləşdirilib: "Strateq. az", "Qaynarinfo", "Gündəminfo", "Criminal.az", "Mia.az", "İstiqlal.az" və "Cümhuriyyət".

Jurnalistika sahəsində peşəkarlığın getdikcə aşağı düşməsi, ekstremal vəziyyətdə və xüsusi məqamlarda bəzi KİV-in milli maraqları qorumaması, hüquqi savadsızlığın mövcudluğu, habelə vətənpərvərlik duyğularının çatışmazlığı kimsəyə sirr deyildir!

Hələ də insanların şərəf və ləyaqətinin qəsdən alçaldılması, sifarişli və qərəzli yazılar yazılması halları azalmayıb!

Hələ də KİV-dən reketlik niyyətilə istifadə edənlər, bunun hesabına özünə güzəran quranlar vardır!

Hələ də yalan informasiyalarla insanları çaşdırmaq, jurnalistlərin peşə kodeksinin prinsiplərini qulaqardına vurmaq istəyənlər üzdədir!

Hələ də bir sıra çap və elektron KİV-ləri sensasiya aludəçiliyi xəstəliyindən yaxa qurtara bilməyib, yaxud heç qurtarmaq niyyətində də deyil!

Odur ki, Mətbuat Şurası bunlara qarşı mübarizəni zəiflətməməlidir. Tezliklə monitorinq keçirilərək islah olunmayan qəzetlər yenidən "qara siyahı"ya qaytarılmalı, elektron medianın isə belə siyahısı tərtib olunmalıdır.

Azərbaycanda ədalətli, obyektiv, doğru, xalqın maraqlarına xidmət edən söz azad olmalıdır və azaddır!

Qərəzli, insanları qəsdən, təmənnalı niyyətlərlə aşağılayan KİV isə qınaq hədəfinə çevrilməlidir!

Belələrinə hüquqdankənar azadlıq vermək jurnalistikaya, insan şəxsiyyətinə və ləyaqətinə ən böyük hörmətsizlikdir!

**Bəxtiyar SADIQOV**